# Qərb Ermənistanı fəlakətə sürükləyir

Avropa İttifaqının Cənubi Qafqaz üzrə keçmiş xüsusi nümayəndəsi Toivo Klaarın ölkəmizin əleyhinə səsləndirdiyi fikirləri heç də təsadüfi hesab etmək olmaz. Birmənalı olaraq qeyd edə bilərik ki, Toivo Klaarın açıqlaması Qərbin Cənubi Qafqaz üzərində qurduğu məkrli planın tərkib hissəsidir. Diqqət etsək görərik ki, ABŞ və Qərb Ermənistan üzərindən Cənubi Qafqaza yerləşmək üçün bütün imkanlarından istifadə edir. Ermənistan isə Qərbin istəyini reallaşdırmaq üçün istifadə edilən alətdən başqa bir şey deyil.



Avropa Sülh Fondunun Ermənistana 10 milyon avro hərbi yardım barədə məlum qərarından sonra Avropa İttifaqının (Aİ) Ermənistanla viza rejiminin liberallaşdırılması ilə bağlı danışıqlara başlaması, eləcə də ABŞ-nin Ermənistan ordusu ilə ortaq təlimlər keçməsi, Pentaqonun yüksəkrütbəli hərbçilərinin Ermənistan Müdafiə Nazirliyində fəaliyyətə başlaması Qərbin Ermənistana girmək niyyətinin ciddiliyindən xəbər verir.

Qərb siyasi dairələri yaxşı başa düşürlər ki, Ermənistanı şirnikləndirməyin bir yolu bir qədər maddi vəsaiti qurban verməkdirsə, digəri də Azərbaycan əleyhinə ədalətsiz fikirlər söyləməkdən, ölkəmizə qarşı Hayastanın xoşuna gələcək beynəlxalq hüquqa zidd fikirlər səsləndirməkdən keçir. Toivo Klaarın sərsəmləmələri Qərb siyasətçilərinin ilk fikirləri olmadığı kimi, heç son da deyil.

Cənubi Qafqazda tarixi reallığın bərpa olunması ilə barışmaq istəməyən qüvvələr 2020-2023-cü illər ərzində istər BMT Təhlükəsizlik Şurasında, istərsə də Aİ-də, Avropa Şurası Parlament Assambleyasında və digər qurumlarda Azərbaycan dövlətinə qarşı müzakirələr təşkil edərək dəfələrlə və davamlı şəkildə separatçıları və terrorçuları müdafiə ediblər. Aydın məsələdir ki, heç nəyə də nail ola bilməyiblər, bilməyəcəklər də. Çünki ədalət Azərbaycanın tərəfindədir. Avropa İttifaqının Cənubi Qafqaz üzrə keçmiş xüsusi nümayəndəsi, Avropa İttifaqının Özbəkistandakı səfiri təyin edilmiş Toivo Klaarın vəzifədən gedən ərəfədə, səlahiyyətlərinə aid olmadan bu cür qərəzli açıqlamalar verməsi ilk növbədə Aİ rəsmisinin təmsil etdiyi qurumun reputasiyasına zərbədir.

Toivo Klaar bilməmiş deyil ki, Ermənistandan qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə öz doğma torpaqlarına geri dönməsi üçün müvafiq şərait yaradılması Ermənistanın öhdəliyidir və təmsil olunduğu beynəlxalq təşkilat və beynəlxalq ictimaiyyət bu öhdəliyin yerinə yetirilməsini tələb etməlidir.

T.Klaarın Azərbaycanın Qarabağ bölgəsindən könüllü əsasda Ermənistana və əvvəllər yaşadıqları digər ölkələrə miqrasiya etmiş ermənilərin qayıtması məsələsini xüsusi hal kimi nəzərdən keçirməsi, indiki Ermənistan ərazisindən zorla qovulmuş azərbaycanlıların qayıdış hüququnu şərtləndirməsi birmənalı olaraq qəbuledilməzdir.

Hadisələrin gedişi Cənubi Qafqazda əsən Qərb küləklərinin tezliklə təhlükəli fırtına ilə əvəzlənəcəyindən xəbər verir. Ermənistan faktiki olaraq KTMT-də fəaliyyətini dayandırıb, bu hərbi-siyasi qurumun toplantılarına qatılmır. Eyni zamanda Paşinyan hakimiyyəti KTMT-nin maliyyələşdirilməsindən də imtina edib. Ermənistan KTMT-nin Rusiya ərazisində keçirilməsi planlaşdırılan növbəti hərbi təlimlərinə qatılmaqdan da qəti şəkildə imtina edib. Təbii ki, bunları rəsmi İrəvanın müstəqil atdığı addım kimi qəbul etmək sadəlövhlük olar. Bunlar ABŞ və Qərbin birbaşa təlimatı əsasında görülən işlərdir.

ABŞ, Avropa Birliyi və Fransanı narahat edən başqa bir məsələ - İrəvan hava limanına nəzarət edən Rusiya sərhədçilərinin uzaqlaşdırılması məsələsi də həllini tapmaq üzrədir. Bundan sonra İrəvan hava limanı yalnız Ermənistan sərhədçiləri tərəfindən mühafizə olunacaq. Bu da o deməkdir ki, Qərbin, Fransanın Ermənistanı silahlandırmaq istiqamətində atdığı addımlardan, göndərdiyi hərbi xarakterli yüklərdən beynəlxalq ictimaiyyətin məlumat almaq imkanı xeyli məhdudlaşacaq.

Qərb, Fransa Ermənistanı silahlandırmaqla bu ölkəni sürətlə faciəvi sonluğa sürükləyir. Qərbin istəyinə uyğun Rusiyanın Ermənistandan çıxacağını, sakitliklə yerini Qərbə verəcəyini düşünmək ağılsızlıq olar. Ortalıqda xarabalıqlar altında qalan Ukrayna nümunəsi var. Xatırladaq ki, MDB ölkələri xarici işlər nazirlərinin aprelin 12-də Minskdə keçirilən iclasında Rusiyanın xarici işlər naziri Sergey Lavrov Birləşmiş Ştatları və Qərb ölkələrini Cənubi Qafqazda vəziyyətin stabilləşməsinə yönəlik razılaşmaları "sarsıtmaq cəhdində" ittiham etmişdi. Yığıncaqdan sonra keçirilən mətbuat konfransında Sergey Lavrov "Onlar Qafqazlarda, xüsusilə də Cənubi Qafqazda vəziyyətin stabilləşdirilməsinə dair razılaşmanı sarsıtmaq istəyirlər. Onlar Ermənistan və Azərbaycan arasında Rusiyanın vasitəçiliyi ilə əldə olunmuş razılaşmaların icrasına imkan vermək istəmirlər. Onlar habelə aktiv şəkildə Mərkəzi Asiyaya sirayət etməyə çalışırlar. Onlar açıq şəkildə Rusiya Federasiyasının əleyhinə olan müxtəlif formatlar yaradırlar".

Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova isə bir neçə gün əvvəl ABŞ-nin Cənubi Qafqaz siyasətinə münasibət bildirərkən qeyd edib ki, ABŞ Cənubi Qafqazdan Rusiyaya qarşı plasdarm kimi istifadə etməyə çalışır. O daha sonra fikrini belə izah edib: "ABŞ-ni prinsipcə sülhsevər siyasət qane eləmir. Regionda sülhün və sabitliyin əldə olunması, yalnız Cənubi Qafqaz regionunda ölkələr arasında münasibətlərin hərtərəfli normallaşması və bilavasitə qonşuların - İran, Türkiyə və Rusiyanın iştirakı ilə mümkün olması Vaşinqtonun məqsəd və vəzifələrinə daxil deyil. Üstəlik, bunun qarşısını almağa çalışırlar". M.Zaxarovanın sözlərinə görə, ABŞ-nin vəzifəsi regionda heç bir qarşılıqlı fəaliyyətin, yaxınlaşmanın və ya qarşılıqlı anlaşmanın əldə edilməməsini təmin etməkdir.

Buradan belə nəticəyə gəlmək olar ki, Ermənistan Qərbin geosiyasi maraqlarının qurbanı olmaq təhlükəsi ilə başbaşadır. Hadisələrin gedişi yaxın zamanlarda qlobal güclərin Cənubi Qafqaz uğrunda savaşlarının daha ciddi xarakter alacağından xəbər verir. Bunun isə Ermənistanın faciəvi sonluğu ilə nəticələnəcəyi qəti şübhə doğurmur.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***



Azərbaycan.- 2024.- 8 avqust (№ 167).- S.4.